**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**LEYLA FAİQ QIZI KƏRİMOVA**

# M.A.ERSOY VƏ S.VURĞUN POEZİYASINDA MİLLİ-MƏNƏVİ İDEALLAR

**5716.01- Azərbaycan ədəbiyyatı**
**5717.01- Türk xalqları ədəbiyyatı**

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I - 2 0 1 7**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Elman Hilal oğlu Quliyev**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər**: **Əsgər Adil oğlu Rəsulov**
filologiya üzrə elmlər doktoru, professor

**Qurban Fərman oğlu Bayramov**
filologiya üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə**: **Bakı Slavyan Universitetinin Azərbaycan ədəbiyyatı kafedrası**

Müdafiə "__30___" _____06________ 2017-ci il saat "_____" - da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim e dissertasiyaların müdafiəsini keçirən D.01.131 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Elektron Akt Zalı, IV mərtəbə

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "______"____________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru:** **İsmixan Məhəmməd oğlu Osmanlı**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Türk dünyasının böyük şairləri sırasında Səməd Vurğun və Mehmet Akif Ersoyun özünəməxsus mövqeyi vardır. Bu dahi şəxsiyyətlər hər zaman millətini və xalqını sevmiş və millətinin rifahı naminə əllərindən gələni əsirgəməmişlər. Hər zaman vətənpərvərlik mövqeyi nümayiş etdirən bu dəyərli ziyalılar xalqın milli mənafeyinə zərbə vuracaq amillərlə mübarizə aparmışlar. Böyük ədiblərimiz vətənin hər qarış torpağını əziz tutmuş və xalqına bağlılığı ilə seçilmişlər. Xalqının mübariz keçmişi və gələcəyi ilə fəxr edən bu dəyərli sənətkarlar vətənin igid övladlarını da vəsf etməyi unutmamışlar. Səməd Vurğun poeziyasında bir sıra milli-mənəvi dəyərlər tərənnüm olunduğu kimi, Mehmet Akif Ersoy poeziyasında da bu tendensiya müşahidə olunur. Həm Səməd Vurğun, həm də Mehmet Akif Ersoy hər zaman xalqının taleyini düşünən insanlar olmuşlar. Bu nəhəng simaların hər ikisi təxminən eyni zaman kəsiyində öz dövlətinin himnlərinin sözlərini yazmışlar. Səməd Vurğun yeni yaranan Sovet Azərbaycanının, Mehmet Akif Ersoy isə yeni yaranmış Türkiyə Cümhuriyyətinin himninin söz müəllifi olmuşdur. Lakin müxtəlif ideoloji tələb, baxış və prinsiplər himnlər arasında fərqlər yaratsa da, Sovet Azərbaycanı üçün yazılmış himnin sözlərində milli duyğulara xidmət göstərən bəzi sətiraltı məna və məqamların yer aldığı inkar edilməzdir. Hər iki sənətkar yaradıcılıq dönəmində öz vətənpərvərlik ideyalarını nəzmə çəkməyi müvəffəqiyyətlə bacarmışdır. Səməd Vurğunun və Mehmet Akif Ersoyun yaradıcılığına yeni müstəvidə yanaşılması bugünkü gündə çox zəruridir. Müstəqillik illərinədək Səməd Vurğun haqqında yazılan tədqiqat əsərlərində onun sovet vətənpərvərliyi mövzusunda yazdığı əsərlərin təhlili ön planda olmuşdur. Eləcə də Mehmet Akif Ersoyun vətənpərvərlik duyğularını özündə əks etdirən əsərlərinin tədqiq olunması Azərbaycan ədəbiyyatşünaslığında geniş yer almamışdır. Bu mənada hər iki sənətkarın yaradıcılığının milli-mənəvi ideallar kontekstində araşdırılması bugünkü ədəbiyyatşünaslığımızın aktual problemlərindən biridir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın əsas tədqiqat obyektini Mehmet Akif Ersoyun və Səməd Vurğunun epik və lirik poeziyası, dissertasiyanın predmetini isə hər iki şairin milli-mənəvi ideal kontekstində araşdırılması təşkil edir. Hər iki sənətkarın millilik və vətənpərvərlik konsepsiyasının aydınlaşdırılması, eyni zamanda şairlərin bu problem daxilində mülahizə və qənaətləri də dissertasiyanın predmetinə daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Mehmet Akif Ersoy və Səməd Vurğun poeziyasına yeni baxış müstəvisində münasibət bildirilməklə hər iki şairin poeziyasının milli vətənpərvərlik mövqeyini müəyyənləşdirmək və millilik ruhunda araşdırmaqdır.

Bu məqsədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- Mehmet Akif Ersoyun əsərlərindəki milli-mənəvi ideal məsələsini araşdırmaq;
- Mehmet Akif Ersoyun yaradıcılığında milli ideologiyanın mühüm məqamlarını açıqlamaq;
- Mehmet Akif Ersoyun patriotizm duyğularını özündə ehtiva edən əsərlərini tədqiq etmək;
- Mehmet Akif Ersoyun qabartdığı ictimai-siyasi və mənəvi məsələləri araşdırmaq;
- Səməd Vurğunun lirik və lirik-epik yaradıcılığını yeni aspektdən araşdırmaq;
- Səməd Vurğunun millilik ruhuna sadiqlik nümayiş etdirdiyi əsərləri təhlil etmək;
- Səməd Vurğunun Azərbaycançılıq ideologiyasının mahiyyətini açıqlamaq;
- Səməd Vurğunun poeziyasındakı vətənpərvərlik motivlərini müəyyənləşdirmək;
- Səməd Vurğun və Mehmet Akif Ersoyu türkçülük idealı kontekstində araşdırmaq;
- Hər iki sənətkarın vətənpərvərlik duyğularını özündə əks etdirən əsərlərini müqayisəli şəkildə bədii təhlil süzgəcindən keçirmək;
- Hər iki şairin milli-mənəvi ideal məsələsi ilə bağlı nəzəri mülahizələrinin mahiyyətini açıqlamaq.

**Mövzunun tədqiq tarixi.** Mehmet Akif Ersoy və Səməd Vurğun haqqında bu günədək bir sıra araşdırmalar aparılmışdır. Hər iki sənətkarın həyat və yaradıcılığı ayrı-ayrı məqalə və monoqrafiyalarda müxtəlif aspektlərdən araşdırılmışdır.

Mehmet Akif Ersoy Türkiyədə haqqında kifayət qədər araşdırma aparılmış bir şəxsiyyətdir. Hələ keçən əsrin 40-cı illərində Midhat Cemal Kuntay[1] və Fevziye Abdullah Tansel[2] M.A.Ersoy haqqında ilk tədqiqlər qələmə almışlar. Sonrakı dövrlərdə Mehmet Akif Ersoy haqqında S.Nazif[3],

[1] Kuntay M.C. Mehmed Akif. Hayatı-Seciyesi-Sanatı. Ankara: Timaş yayınları, 2009, 459 s.
[2] Tansel F.A. Mehmed Akif: hayatı ve eserleri. İstanbul: Kanaat kitabevi. 1945, 247 s.
[3] Nazif S. Mehmed Akif. İstanbul: Hareket yayınları, 1971, 136 s.

C.S.Ongün [1], E.A.Müstacaboğlu [2], A.N.Tarlan [3], Y.Tartan [4], İ.Eliaçık [5], M.C.Kuntay[6], A.Kabaklı[7], N.Topçu[8], O.Y.Serdengeçti[9], M.Nalbantoğlu[10], M.O.Okay [11], N.Pekolcay [12], B.Ayvazoğlu [13], K.Yetiş [14], İ.Kocakaplan [15], S.Karakoç [16], L.Şehsüvaroğlu [17], Z.Güvemli [18], A.V.Akbaş [19], N.Çetin [20], Y.Çağbayır[21], R.Kaymaz[22], E.Düzdağ[23], F.Gökçek[24] və başqaları tədqiqat əsərləri qələmə almışlar. Azərbaycanda da Mehmet Akif Ersoy ilə bağlı bir sıra araşdırma aparılmışdır. Azərbaycanlı alimlərdən - P.Xəlilov [25],

---

[1] Ongün C.S. Mehmet Akif. Hayatı, eserleri, şahsiyeti ve idealleri. İstanbul: Tefeyyüz yayınevi, 1947, 112 s.
[2] Müstecaboğlu E.A. Mehmet Akif: Ferdi ve ictimai karakteri,vatanperverliği, milletçiliği. İstanbul: Ülkü basımevi, 1937, 56 s.
[3] Tarlan A.N. Mehmed Akif ve Safahat. İstanbul: Nida yayınevi. 1971, 142 s.
[4] Tartan Y. Bulutlardan yıldırım sağdık. Mehmet Akif hikayeleri. Ankara: DİB yayınları, 2002, 96 s.
[5] Eliaçık İ. Mehmet Akif Ersoy. İstanbul: İlke yayınları, 2004, 96 s.
[6] Kuntay M.C. Necid çöllerinde Mehmet Akif. İstanbul: Boğaziçi yayınları. 1992, 246 s.
[7] Kabaklı A. Mehmet Akif. İstanbul: Toker yayınları, 1970, 160 s.
[8] Topçu N. Mehmet Akif. İstanbul: Dergah yayınları, 2011, 96 s.
[9] Serdengeçti O.Y. Mevlana ve Mehmet Akif Ersoy. Ankara: Serdengeçti neşriyatı, 1958, 48 s.
[10] Nalbantoğlu M. Mehmet Akif ve İstiklal marşı. İstanbul: Veli yayınları, 1981, 80 s.
[11] Okay O. Mehmet Akif: Bir karakter heykelinin anatomisi. Ankara: Akçağ yayınları, 1989, 143 s.
[12] Pekolçay N. Mehmed Akifin verdiği mesajlar ve tesir alanı. İstanbul: MÜİAV yayınları, 1991, 87 s.
[13] Ayvazoğlu B. Mehmet Akif ve Safahat. İstanbul: Tercüman gazetesi yayınları, 1986, 304 s.
[14] Yetiş K. Mehmet Akifin sanat, edebiyat ve fikir dünyasından çizgiler. Ankara: Atatürk kültür merkezi yayınları, 1992, 218 s.
[15] Kocakaplan İ. İstiklal marşımız ve Mehmed Akif Ersoy. İstanbul: Türk edebiyatı vakfı yayınları, 2002, 143 s.
[16] Karakoç S. Mehmed Akif. İstanbul: Diriliş yayınları,1985, 46 s.
[17] Şehsüvaroğlu L. Mehmet Akif Ersoy. Ankara: Alternatif yayınevi, 2002, 256 s.
[18] Güvemli Z. Mehmet Akif. Hayatı, sanatı, şiirleri. İstanbul: Varlık yayınevi, 1983, 115 s.
[19] Akbaş A.V. Mehmet Akif. Düzyazılar, makaleler, tesfirler, vaazlar. İstanbul: Beyan yayınları, 2011, 542 s.
[20] Çetin N. Mehmet Akifi doğru anlamak. İstanbul: Ferfir yayıncılık. 2011, 96 s.
[21] Çağbayır Y. İstiklal marşının tahlili. Ankara: Türkiye Diyanet Vakfı yayınları, 2008, 396 s.
[22] Kaymaz R. Mehmet Akif Ersoy ve İstiklal marşı. Ankara: Akçağ yayınları, 2009, 191 s.
[23] Düzdağ E. Mehmet Akif Ersoy. Ankara: Mas matbaacılık, 1988, 134 s.
[24] Gökçek F. Mehmet Akifin şiir dünyası. İstanbul: Dergah yayınları. 2005, 360 s.
[25] Xəlilov P. Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994, 429 s.

C.Heyət[1], A.Abıyev[2], E.Quliyev[3], H.Həşimli[4], Ə.Rəsulov[5], J.Əliyeva[6], və başqaları bu mövzuda tədqiqatlar aparmışlar. Onu da qeyd etmək lazımdır ki, Abdullah Tüylü[7] 2005-ci ildə Azərbaycanda, Azərbaycan dilində "Mehmet Akif Ersoy şeirlərində sosial məsələlər" adlı kitab nəşr etdirərək, böyük şairin yaradıcılığını geniş şəkildə araşdırmışdır. Səriyyə Gündoğdu[8] "Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü" adlı dissertasiya işində şairin yaradıcılığını sosial problemlər daxilində təhlil etmişdir.

Azərbaycanda Səməd Vurğun haqqında kifayət qədər araşdırılma aparılmışdır. Səməd Vurğun haqqında yazılanlara nəzər salsaq, bir çox tədqiqatçıların, ədəbiyyatşünas-alimlərin Səməd Vurğun yaradıcılığına müraciət etdiyinin şahidi olarıq. H.Araslı[9], M.Ələkbərli[10], M.Arif[11], M.Cəlal[12], M.Quluzadə[13], M.Cəfər[14], C.Xəndan[15], Q.Qasımzadə[16], F.Qasımzadə[17], A.Zeynallı[18], C.Abdullayev[19], F.Mehdi[20], B.Vahabzadə[21],

---

[1] Heyət C. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda. Bakı: Elm və təhsil, 2011, 704 s.
[2] Abıyev A. Türkiyə ədəbiyyatı tarixi. Bakı: Tural NPM, 2005, 456 s.
[3] Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Apoctoroff, 2014, 612 s.
[4] Həşimli H. Azərbaycan ədəbi mühiti və türk dünyası. Bakı: Mütərcim, 2009, 198 s.
[5] Rəsulov Ə. Türk sənədli-bədii nəsri. Bakı: Nurlan NPM, 428 s.
[6] Əliyeva J. Çağdaş türk şeirinin poetikası. Bakı: Elm, 2000, 91 s.
[7] Tüylü A. Mehmet Akif Ersoy şeirlərində sosial məsələlər. Bakı: Qismət, 2005, 271 s.
[8] Gündoğdu S. Mehmed Akif Ərsoy yaradıcılığında ictimai problemlərin bədii təcəssümü. Fil. üz. fəl. dok....dis. Bakı, 2008, 147 s.
[9] Araslı H. Səməd Vurğun klassik şeirimiz haqqında // ADU-nun Elmi Əsərləri, 1956, №5, s.63-67
[10] Ələkbərli M. Səmədin "Həsrəti". "Ədəbiyyat qəzeti", Bakı, 1935, 9 yanvar
[11] Arif M. Səməd Vurğunun dramaturgiyası. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1964, 238 s.
[12] Mir Cəlal. Xalq şairi Səməd Vurğun. Bakı: Azərnəşr, 1966, 94 s.
[13] Quluzadə M. Səməd Vurğunun "Aygün" poeması haqqında. "Kommunist" qəzeti, Bakı, 1952, 13 mart
[14] Cəfər M. Səməd Vurğun. Bakı: Azərnəşr, 1966, 51 s.
[15] Xəndan C. Ədəbiyyatımızın dünəni və bu günü. Bakı: Yazıçı, 1980, 245 s.
[16] Qasımzadə Q. Səməd Vurğun yaradıcılığında beynəlmiləlçilik // Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. Ədəbiyyat məcmuəsi. XI c., Bakı: Azərbaycan EA nəşriyyatı, 1957, s. 30-45
[17] Qasımzadə F. Səməd Vurğun klassiklərimiz və ədəbiyyat tarixi haqqında // Azərbaycan, 1959, №5, s. 201-211
[18] Zeynallı A. Səməd Vurğun sənəti. Bakı: Elm, 1990, 238 s.
[19] Abdullayev C. Səməd Vurğunun poetikası. Bakı: Gənclik, 1976, 160 s.
[20] Mehdi F. Alovlu publisist Səməd Vurğun. Bakı: Azərnəşr, 1967, 191 s.
[21] Vahabzadə B. Səməd Vurğun. Bakı: Gənclik, 1984, 380 s.

R.Quliyev [1], M.C.Cəfərov [2], K.Talıbzadə [3], Q.Xəlilov [4], O.Sarıvəlli [5], Y.Qarayev[6], B.Nəbiyev[7], Elçin[8], H.Ənvəroğlu[9], A.Eminov[10], Ş.Nəzirli[11], P.Əfəndiyev[12], C.Quliyev[13], Ş.Alışanov[14], A.Bayramov[15], Q.Bayramov[16], A.Salmansoy [17] və digər ədəbiyyatşünas-alimlərin yazmış olduğu monoqrafiya və məqalələrdə S.Vurğun yaradıcılığının ideya-mövzu baxımından araşdırılması əsas yer tutur. Azərbaycan ədəbiyyatşünaslığında xalq şairi S.Vurğunla əlaqədar yazılmış dissertasiyalarda dahi söz sahibinin yaradıcılığı müəyyən problemlər daxilində araşdırılmışdır. Son dövlərdə N.Namazova [18], A.Bağırova [19], Ə.Cabbarlı [20], A.Bayramov [21] Səməd Vurğunla bağlı dissertasiya yazmışlar. Azərbaycan ədəbiyyatşünaslığında xalq şairi Səməd Vurğunla əlaqədar yazılmış dissertasiyalarda dahi söz sahibinin yaradıcılığı müəyyən problemlər daxilində tədqiq olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada qoyulan problem həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatşünaslığında müstəqil tədqiqat kimi ilk dəfə öyrənilir. Dissertasiyada Mehmet Akif Ersoy və Səməd Vurğun poeziyasına yeni baxış müstəvisində münasibət bildirilmiş, hər iki şairin

---

[1] Quliyev R. Azərbaycan Vurğunun gözü ilə. Bakı: Gənclik, 1974, 54 s.
[2] Cəfərov M.C. "Aygün" poeması haqqında. "Ədəbiyyat qəzeti", Bakı, 1952, 15 mart
[3] Talıbzadə K. Səməd Vurğun və Azərbaycan sovet ədəbiyyatı məsələləri // Azərbaycan, 1976, №9, s.25-38
[4] Xəlilov Q. "Vaqif" pyesi və tarixi dram janrı. Bakı: Azərnəşr, 1964, 183 s.
[5] Sarıvəlli O. "Komsomol poeması" və onun çapa hazırlanması haqda bəzi qeydlər. Komsomol poeması. Bakı: Uşaqgəncnəşr, 1958, 134 s.
[6] Qarayev Y. Realizm: sənət və həqiqət. Bakı: Elm, 1980, 257 s.
[7] Nəbiyev B. Süngüyə çevrilmiş qələm. Bakı: Azərnəşr, 1970, 241 s.
[8] Elçin. Əlimdədir hələ qələm. // Azərbaycan, 1986, №10, s. 7-21
[9] Ənvəroğlu H. Səməd Vurğunun poetik dünyası. Bakı: Elm, 2006, 102 s.
[10] Eminov A. Səməd Vurğun poetikası. Bakı: Nərgiz, 1999, 265 s.
[11] Nəzirli Ş. Vurğun keçib bu yerlərdən. Bakı: Yazıçı, 1986, 168 s.
[12] Əfəndiyev P. Səməd Vurğun və xalq yaradıcılığı. Bakı: Yazıçı, 1992, 116 s.
[13] Quliyev C. Səməd Vurğun. Bakı: Azərbaycan SSR Maarif Nazirliyinin mətbəəsi, 1986, 62 s.
[14] Alışanov Ş. Səməd Vurğunun estetik görüşləri // Elm və həyat, 2006, №3-4, s.5-9
[15] Bayramov A. Yaşayan ömür. Bakı: İşıq, 1990, 62 s.
[16] Bayramov Q. S.Vurğun poeziyası. Bakı: Elm, 1976, 78 s.
[17] Salmansoy A. Mətn və onun tarixçəsi. (S.Vurğunun yaradıcılığında). XX əsr Azərbaycan ədəbiyyatı məsələləri (II kitab). Bakı: Elm, 2008, s.133-171
[18] Namazova N. Səməd Vurğun və uşaq ədəbiyyatı. Fil. üz. fəl. dok.....dis. Bakı, 2005, 131 s.
[19] Bağırova A. Səməd Vurğunun nəzəri-estetik görüşlərində klassik irs problemi. Fil. üz. fəl. dok.....dis. Bakı, 2010, 126 s.
[20] Cabbarlı Ə. Səməd Vurğunun obrazlar sistemi. Fil. üz. fəl. dok.....dis. Bakı, 2012, 152 s.
[21] Bayramov A. Səməd Vurğun yaradıcılığında insan: millilik və bəşərilik. Fil. el. dok.....dis. Bakı, 2007, 271 s.

yaradıcılığının milli vətənpərvərlik ruhu türkçülük aspektində araşdırılmışdır. Tədqiqat əsərində S.Vurğun və Azərbaycançılıq, M.A.Ersoy və türkçülük problemlərinə, hər iki şairi birləşdirən milli bağlar ilk dəfə mahiyyət müstəvisində təhlilə cəlb edilmişdir. Bunlardan başqa hər iki şairin yaradıcılığı onların yaşadığı sosial-ideoloji mühit və sənətkar konteksti daxilində öyrənilmiş və problem bu çərçivədə dəyərləndirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Göründüyü kimi, S.Vurğunla bağlı Azərbaycan ədəbiyyatşünaslığında çoxsaylı tədqiqatlar aparılsa da, S.Vurğun sənəti milli-mənəvi ideallar kontekstində təhlil olunmamışdır. Tədqiqat işindən alınan nəticələr gələcəkdə M.A.Ersoy və S.Vurğunla bağlı aparılacaq araşdırmalar üçün əhəmiyyətli ola bilər. Tədqiqat işindən ali məktəblərdə müvafiq fakültə və ixtisaslarda təhsil alan tələbələr, magistrantlar, həmçinin tədqiqatçılar istifadə edə bilər. Eyni zamanda Azərbaycan ədəbiyyatı tarixinin və Türkiyə ədəbiyyatı tarixinin hazırlanmasında, müxtəlif dərslik və monoqrafiyaların yazılmasında tədqiqat işindən bəhrələnmək olar.

**Tədqiqatın elmi-metodoloji əsası.** Tədqiqat işində tarixi-müqayisəli, tarixi-elmi-nəzəri və müqayisəli-tipoloji metodologiya əsas götürülmüşdür. Eyni zamanda dissertasiyada analitik təhlil metodundan da istifadə edilmişdir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya mövzusu ilə bağlı bir monoqrafiya çap olunmuş, yerli və xarici jurnallarda, o cümlədən respublika və xaricdə keçirilən beynəlxalq konfranslarda çoxsaylı məqalə və tezislər dərc edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, işlənmə dərəcəsi müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyindən, metod və mənbələrdən, nəzəri və praktik əhəmiyyətindən bəhs edilir, işin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **“Mehmet Akif Ersoyun Türkiyə ədəbiyyatında yeri və təsir dairəsi”** adlanır. Bu fəslin **“Milli dövlətçilik arzuları və Mehmet Akif Ersoy yaradıcılığı”** adlı birinci yarımfəslində böyük türk şairi Mehmet Akif Ersoyun həyat yoluna nəzər salınmış, milli dövlətçilik naminə apardığı mübarizələr öz əksini tapmışdır. Eləcə də burada şairin milli dövlətçilik arzularını özündə ehtiva edən bədii-poetik nümunələri tədqiq olunmuşdur. M.A.Ersoy 1923-cü ildə yaranmış olan Türkiyə Cümhuriyyətinin çətin çağlarını görmüş və yaşadığı illər boyunca cəmiyyətdəki çatışmazlıqları göstərməkdən çəkinməmişdir. Şair II Məşrutə elan olunduqdan sonra ölkədə baş vermiş milli mücadilə illərini, baş vermiş Birinci Dünya müharibəsini, Balkan və eləcə də Çanaqqala müharibələrini yaxından izləmiş və yeri gəldikcə bir mühərrir kimi mətbuat səhifələrində xalqını, millətini mübarizəyə səsləmişdir.

M.A.Ersoy baş verən müharibələri, sosial ədalətsizliyi, ümumiyyətlə, cəmiyyətdə baş verən neqativ halları bədii şəkildə əks etdirmiş və bədii yaradıcılığını əsasən “Safahat” adlanan topluda bir araya gətirmişdir.

1920-ci ilin sonlarında Maarif Vəkalətliyi tərəfindən himn yazılması üçün müsabiqə elan edilmişdir. Mehmet Akif Ersoy məşhur “İstiqlal marşı” şeirini yazıb həmin müsabiqəyə göndərmişdir. Müsabiqənin sonunda Mehmet Akif Ersoyun şeiri birinci yerə layiq görülmüşdür. 724 şeirin içindən bəyənilərək birincilik qazanan “İstiqlal marşı” şeiri 12 mart 1921-ci il tarixində Böyük Millət Məclisində oxunmuş və Türkiyənin rəsmi himni olaraq qəbul olunmuşdur.

“Safahat” ilk dəfə 1911-ci ildə nəşr olunmuş və buraya M.A.Ersoyun “İstiqlal marşı” şeirindən başqa digər şeir nümunələri daxil edilmişdir. Buna səbəb kimi şair bu şeirin tək ona deyil, bütövlükdə millətə, xalqa məxsus olmasını göstərmişdir. “Safahat”ın ilk kitabı 1911-ci ildə, “Süleymaniyyə kürsüsündə” adlanan ikinci kitabı 1912-ci ildə, “Haqqın səsləri” adlanan üçüncü kitab 1913-cü ildə, “Fateh kürsüsündə” adlanan dördüncü kitabı 1914-cü ildə, “Xatirələr” adlanan beşinci kitabı 1917-ci ildə, “Asım” adlanan altıncı kitabı 1924-cü ildə, “Kölgələr” adlanan yeddinci kitabı isə 1933-cü ildə nəşr olunmuşdur. Bütövlükdə şairin kreativ konsepsiyasından xəbər verən, ədibin metodologiyasının ortaya qoyulduğu bu kitabların hər birində şairin vətənpərvərlik mövqeyindən çıxış etməsi danılmazdır. Onun Türkiyə ədəbiyyatındakı mövqeyini Türkiyə Cümhuriyyənin prezidenti Recep Tayyip Erdoğan belə səciyyələndirir: “Akif sadəcə qüdrətli bir şair və İslam mütəfəkkiri deyil. Eyni zamanda müasir savadı olan insandır. Həqiqəti və İslamın bünövrə əsərlərini bildiyi qədər, Qərbi də elmi ilə, ədəbiyyatı ilə, fəlsəfəsi ilə bilən insandır. Onun

coğrafiyasında Hicaz da var, Berlin də... Qısası, Akif bizə böyük düşünməyi və çətin şərtlərdə təslim olmamağı öyrədəndir[1].

M.A.Ersoyun "Asım" əsəri "Safahat" toplusunun ən önəmli kitabı sırasında olmaqla yanaşı, Mehmet Akif Ersoyun milli-mənəvi ideal konsepsiyasının açıqlandığı dəyərli bir əsərdir. Əsərdəki Asım obrazı gələcək nəsillərin xilaskarı kimi təsvir olunur. Asım sanki qaranlıqda yanan bir işıqdır, sönməkdə olan bir ocağın közərmiş odudur və məhz Asım kimi təhsilli gənclər cəmiyyəti nurlu sabaha, işıqlı gələcəyə apara bilər.

"Asım" əsərində Asım ideal qəhrəman kimi diqqəti çəkir. Müəllif görmək istədiyi türk gəncliyini Asımın simasında xarakterizə etməyə nail olmuşdur. Asım əsərin ideya yükünü təcəssüm etdirən və eyni zamanda Ersoyun ideallaşdırdığı bir obrazdır. M.A.Ersoyun canlandırdığı bu obraz cəmiyyətin xilaskarı kimi xarakterizə olunmaqla yanaşı, müəllifin görmək istədiyi türk gəncliyinin rəmzidir. Bu baxımdan əsərin ideya yükü və bədii çəkisi olduqca dəyərlidir və insanları düzgün mövqedə olmağa səsləyən qüdrətli əsərlər sırasındadır.

Dissertasiyanın I fəslinin **"Mehmet Akif Ersoy poeziyasında millətçilik və milli-mənəvi həmrəylik problemləri"** adlı II yarımfəslində şairin millətçilik düşüncələrinin inikas olunduğu əsərlər təhlilə cəlb edilmiş, milli-mənəvi həmrəylik məsələləri araşdırılmışdır.

Görkəmli türk şairi, vətənpərvər insan Mehmet Akif Ersoy baş verən ictimai-siyasi proseslərə biganə qalmamışdır. O dövrki türk cəmiyyətində baş verən bütün prosesləri izləyən və şahidinə çevrilən şair bütün bunları bədii şəkildə əks etdirməklə yanaşı, bu problemlərdən qurtuluş yolunu da axtarırdı. Bu baxımdan onun "Tövhid yaxut fəryad", "Seyfi baba", "Küfə", "Xəstə", "Həsir" əsərlərində yoxsulların, kimsəsizlərin acı güzəranı, "Meyxana", "Məhəllə çayxanası" əsərlərində isə ailə-məişət problemləri, qadın hüquqsuzluğu, cəhalətin gətirdiyi bəlalar, və s. problemlər öz bədii əksini tapmışdır. Eləcə də şairin "Xatirələr", "Fateh kürsüsündə" əsərlərində ictimai-siyasi problemlər fonunda cəmiyyətdəki nöqsanlar, təhsilin vəziyyəti, milli-mənəvi dəyərlər kimi anlayışlara münasibət bildirilmişdir. Şair bütün bunları gah iki şəxsin mükaliməsi şəklində nəzərə çatdırır, gah özü ulu tanrıya müraciətlə problemləri təsvir edərək ondan nicat yolu istəyir, gah özü bilavasitə hadisələrin iştirakçısı kimi təqdim edilir.

---

[1] Erdoğan R.T. T.C. Başbakanı Sayın Recep Tayyip Erdoğanın konuşmaları / Uluslararası Mehmet Akif Ersoy Milli Birlik ve Bütünlük Sempozyumu bildiriler kitabı. İstanbul: İstanbul Sabahattin Zaim Üniversitesi. Yayın № 3, 2011, s.26

M.A.Ersoyun “Küfə”, “Meyxana”, “Xəstə”, “Səlma”, “Amin alayı”, “Dirvas”, “Körpə, yaxud haqqı qərar”, “Bayram”, “Məzarlıq”, “Qoca qarı ilə Ömər” adlı əsərlərində uşaq qəhrəmanlar və onların problemləri canlandırılmışdır. Onun əsərlərində müxtəlif uşaq qəhrəmanlarının parlaq obrazı canlandırılmışdır. M.A.Ersoyun uşaq qəhrəmanlarının hamısı yoxsuldur, məzlumdur, çarəsizdir, təhsil almaq üçün mübarizə aparandır, çətinliklə qarşılaşandır.

Mehmet Akif Ersoy bəzi şeirlərində milləti ilə bağlı bədbinliyə qapılsa da, sonradan özündə mənəvi güc taparaq xalqının parlaq gələcəyinə inamı olduğunu bildirir. Onun “Şərq”, “Hüsran”, “Bülbül” və digər şeirləri bu baxımdan çox maraqlıdır. Ersoyun bu şeirlərində ənənəvi olaraq Şərq və Qərb qarşıdurması hökm sürür.

“Süleymaniyyə kürsüsündə” əsəri Mehmet Akifin millətçilik mövqeyi nümayiş etdirdiyi ən dəyərli əsərlər sırasındadır. Bu əsərdə Mehmet Akif Ersoy çox narahatdır. Azadlığın gözlənilən nəticə vermədiyini görən, əksinə xalqın güzəranının gündən-günə pisləşdiyinin şahidi olan şair bu şeirində narahatlığını qabarıq şəkildə büruzə vermişdir. Fatih Xocaya ithaf olunan bu şeirdə şair öz hiss və düşüncələri ilə birlikdə bir daha vətənpərvər olduğunu sübuta yetirmişdir. M.A.Ersoy bu əsərdə demək istədiyi fikirləri Əbdürrəşid İbrahim Əfəndi obrazı vasitəsilə dilə gətirmişdir. Əbdürrəşid İbrahim Əfəndi əvvəlcə müsəlman ölkələrini gəzmiş, sonra isə Rusiya, Hindistan və Yaponiyaya səyahət etmişdir. Bu obraz əslində böyük türk mütəfəkkiri, səyyah və ədibi, həyatda M.A.Ersoyun dostu olan Əbdürrəşid İbrahim Əfəndi adlı şəxsin prototipidir.

Ersoyun milli məfkurəsinin qabarıq şəkildə əks olunan əsərləri sırasında “Fateh kürsüsündə”, “Xatirələr”, “Haqqın səsləri”, “Kölgələr” toplularını vurğulamaq mümkündür. Bu kitabların hər birinə daxil olan şeir nümunələrində ictimai-siyasi motivlər geniş yer almış, böyük şairin tərəddüd və narahatlıqları öz bədii inikasını tapmışdır. M.A.Ersoyu narahat edən mühüm məqamlardan biri Qərb dövlətlərinin təzyiqi altında Şərqin məhkum bir vəziyyətə düçar olması və məhvə doğru sürüklənməsi problemidir. Şair üsyankarcasına bu vəziyyətə münasibət bildirməkdən çəkinmir və müsəlmanların birləşərək bu vəziyyətdən xilas olacağına inamını bildirirdi.

Dissertasiyanın **“Səməd Vurğunun poeziyasında milli vətənpərvərlik mövqeyinin milli-tarixi kontekstdə dərki”** adlı II fəslinin I fəsli **“1920-50-ci illər Azərbaycan poeziyasında vətənpərvərlik mövzusu və Səməd Vurğunun lirikası”** adlanır. Bu yarımfəsildə

S.Vurğunun lirikasındakı vətənpərvərlik mövqeyi tədqiq edilməklə yanaşı, 1920-50-ci illərdə Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzusunda yazılan şeirlər təhlilə cəlb edilmişdir.

XX əsrdə yaşayıb-yaratmış sənətkarlar sırasında özünəməxsus mövqeyi olan Səməd Vurğun öz qüdrətli vətənpərvərliyi ilə seçilən şair, həm də qüdrətli bir novatordur. Səməd Vurğunun poeziyası canlı xalq danışıq dilinə söykənən bir poeziyadır. Təsadüfi deyildir ki, görkəmli şairimiz Azərbaycan tarixində ilk dəfə olaraq "xalq şairi" adına layiq görülmüşdür. Özündə Nizaminin epik-lirik üslubunu, Füzulinin lirik-romantik bədii düşüncəsini və Vaqifin lirik-realist ənənəsini ehtiva edən Səməd Vurğun poeziyası milli kökdən qidalanan, ənənə və müasirliyi bədii vəhdətdə inikas etdirən dəyərli bir milli bədii külliyyatdır.

Səməd Vurğunun yaşadığı ictimai-siyasi mühitə nəzər salsaq, şairin sovet dönəminin tam bərqərar olduğu illərdə yazıb-yaratdığını görmək mümkündür. Səməd Vurğuna qədərki dönəmdə öz keçmişi ilə öyünənlərin, "düşünən beyinlər"in acı aqibəti Azərbaycan xalqına bəllidir. Səməd Vurğunun yaşadığı dövrdə müxləlif ədəbi təmayüllər mövcud olsa da, sosialist realizmi əsas və aparıcı cərəyanlar sırasında idi. Həmin dövrdə görkəmli ədiblərimizin bəzilərinin "pantürkist" damğası ilə damğalanaraq repressiya edilməsi, sürgün edilməsi, sözsüz ki, ədəbiyyat tariximizdən izsiz ötüşə bilməzdi. Əhməd Cavad, Seyid Hüseyn, Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz, Bəkir Çobanzadə, Tağı Şahbazi Simürq, Hənəfi Zeynallı kimi ədiblərimiz qanlı repressiya illərinin qurbanına çevrilmişdi. Milli varlığı ilə öyünən ədiblərimizin bir qismi repressiyaya, bir qismi də mühacirətə məruz qalmışdı. Belə olduğu halda Səməd Vurğunun o dövrdə Azərbaycançılıq sevgisinə, milli ideologiyaya sadiqliyi heç də asan məsələ deyildi. Bununla yanaşı, şair nəinki bu ideologiyanı özünə rəhbər tutur, hətta keçən əsrin 30-cu illərində otuz poemadan ibarət "Azərbaycan epopeyası" yaratmaq istəmişdir.

Milli fəxarət hisslərimizin böyük ustalıqla nəzmə çəkildiyi Səməd Vurğun poeziyasını başdan-başa "Azərbaycançılıq salnaməsi" adlandırsaq, heç də yanılmarıq. Sovet dövrünün bərqərar olduğu bir dönəmdə milli ədəbiyyatı yaratmaq hər sənətkara nəsib olmamışdır. Lakin Səməd Vurğun kimi əbədiyaşar sənətkarımız bu çətin missiyanın öhdəsindən ləyaqətlə gəlməyi bacarmışdır. Otuz illik yaradıcılıq dönəmində xalqımızın milli ədəbiyyatının formalaşmasına və zənginləşməsinə xidmət göstərmiş, əmək sərf etmiş Səməd Vurğun bu yolda bütün çətinlik və maneələri dəf etməyə müvəffəq olmuşdur. Şairin yaradıcılığı onun sənətkarlıq qüdrəti ilə birlikdə

zirvədə bərqərar olması ilə yanaşı milliliyindən, xalqına bağlılığından, mənəviyyatından, ülviyyətindən xəbər verir.

Şairin Azərbaycana olan sevgisində qaynaqlanan "Azərbaycan" şeiri 1935-ci ildə yazılmışdır. Bu dövrdə sovet poeziyasında "SSRİ mənim vətənimdir" ideologiyasının hökm sürdüyü bir vaxtda S.Vurğun "Azərbaycan mənim tarixi vətənimdir" müddəasını irəli sürürdü. S.Vurğunun "Azərbaycan" şeiri vətən haqqında yazılan ən dəyərli şeirlər sırasındadır. Doğrudur, Səməd Vurğundan öncə yazılmış Abbas Səhhətin "Könlümün sevgili məhbubu mənim" misraları ilə başlayan vətən haqqında şeiri dillər əzbəri olsa da, məhz Səməd Vurğunun yazmış olduğu "Azərbaycan" şeiri də bir o qədər sevildi, dillər əzbəri oldu və zirvədə qərarlaşdı. "Azərbaycan" şeiri həm Səməd Vurğun yaradıcılığının, həm də Azərbaycan poeziyasının manifest nümunəsinə çevrildi. Şeirin bəyənilib sevilməsi səbəbsiz deyildi. Bütövlükdə Azərbaycan adlı bir "qəhrəman"ın canlandırıldığı bu dəyərli şeirdə şairin vətən haqqında olan ən qiymətli düşüncələri bir küll halında öz bədii əksini tapmışdır. "Azərbaycan" şeiri onun vətənə məhəbbətindən qaynaqlanır, Azərbaycançılıq sevgisindən ilhamlanırdı. Bu şeirdə görkəmli şairimiz Səməd Vurğun vətənpərvərlik duyğularını təzahür etdirməklə yanaşı, Azərbaycanın malik olduğu təbii gözəllikləri incə bir lirizmlə vəsf etmişdir. Qədim Qarabağın lətif bir patriotizmlə tərənnüm olunduğu bəndlərin birində şairin vətən sevgisi aşağıdakı misralarda qabarıq şəkildə nəzərə çarpır:

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşamüstü qoy uzaqdan,*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi*[1]

Göründüyü kimi şair nəinki Qarabağın gözəlliklərindən bəhs edir, hətta xalq arasında "Xan Şuşinski" təxəllüsü ilə tanınan, görkəmli xanəndə İsfəndiyar Cavanşirovun da adını vurğulamağı unutmur.

Böyük şairimizin qələmə aldığı bədii örnəklərin aşıq yaradıcılığının mühüm tərkib hissəsini təşkil etməsi danılmazdır. Şair aşıq şeiri şəkillərindən daha çox qoşma və gəraylı janrında müraciət etmişdir. Xüsusilə "dağlar" məfhumuna xitab şairin bu janrda yazdığı şeirlərin əsas mündəricəsini təşkil edir. Bu baxımdan Səməd Vurğunun "Dağlar", "Bizim dağların" qoşmaları, eləcə də "Dağlar" gəraylısı poetik qələminin ən dəyərli nümunələri sırasındadır. Şair üçün dağlar əzəmət və vüqar rəmzi

---

[1] Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə. c.1, Bakı: Şərq-Qərb, 2005, s.178

olmuş və yeri gəldikcə şair dağların tərənnümünə geniş yer ayırmışdır. Səməd Vurğun "Bizim dağların" şeirində xüsusilə bədii tərənnümə geniş yer ayırmış və dağların əzəmətini təsvir etmişdir. Ümumiyyətlə, Azərbaycan xalqına məxsus olan bütün nemətləri tərənnüm etmək şairin ən mühüm yaradıcılıq amalı olmuşdur. Şairin "Bənövşə", "Gülə-gülə", "Ceyran" şeirlərində isə onun təbiətə hədsiz vurğunluğunun şahidi olmaq mümkündür.

Məlumdur ki, 1938-ci ildə keçirilən Azərbaycan Aşıqlarının Qurultayında Rəyasət Heyətinin tərkib hissəsində Səməd Vurğun da olmuşdur. Bir sıra azərbaycanlı aşıqların Yazıçılar Birliyinə üzv olması üçün çalışan şairimiz bu yolda da mühüm addımlar atmışdır. Səməd Vurğunun aşıq dostları sırasında Mirzə Səməd, Aşıq Mirzə, Məzahir Daşqın, Aşıq Ədhəm, Aşıq Hüseyn Cavan, Dədə Şəmşir və digərlərinin adlarını çəkmək mümkündür. Ümumilikdə şair aşıq yaradıcılığını yüksək dəyərləndirmiş və aşıq sənətinin qorunub saxlanması üçün əlindən gələni əsirgəməmişdir.

Keçən əsrin 30-cu illərin sonu 40-cı illərin əvvəllərində Səməd Vurğunun yaradıcılığında yeni bir dönəm başlamışdır. Vətən sevgisi, torpağa, doğma vətənə bağlılıq hissləri şairin bu illərdəki yaradıcılığında vəhdət halında təcəssüm olunurdu. Birmənalı şəkildə sülh carçısı olan şairimiz torpaq uğrunda, vətənin bütövlüyü uğrunda vuruşan qəhrəmanlarımızı vəsf etməkdən usanmamış, əksinə bu işin öhdəsindən qürurla gəlmişdir. Bu illərdə Səməd Vurğunun qələmə aldığı şeirlərdə vətənə məhəbbət, vətən uğrunda mübarizə ideyaları qabarıq şəkildə əks olunurdu. Bu səbəbdəndir ki, İkinci Dünya müharibəsi başlayan zaman vətənpərvər şair dərhal və birmənalı şəkildə öz yaradıcılıq mövqeyini bu şəkildə müəyyənləşdirdi:

*Bilsin ana torpaq, eşitsin vətən,*
*Müsəlləh əsgərəm mən də bu gündən*
*Bu gün bir süngüdür əlimdə qələm,*
*Mənim bayrağıma göz dikir aləm.*[1]

Səməd Vurğun müharibənin başladığı ilk gündə məhz misralarından nümunə gətirdiyimiz "Vətənin keşiyində" adlı şeiri qələmə almışdır. Bu da onu göstərir ki, Səməd Vurğun ətrafında baş verən heç bir hadisəyə biganə qalmamış və xalqını, millətini, vətənini narahat edən məsələlərə dərhal münasibət bildirməyi özünə mənəvi borc bilmişdir.

---
[1] Vurğun S. Səadət uğrunda. Bakı: Azərnəşr, 1942, s. 10

Səməd Vurğunun o illərdə yazılmış şeirlərinin hər birində sanki müharibə ab-havası hökm sürür, qəhrəmanlığa, igidliyə səsləniş aydın şəkildə duyulurdu. Şairin şeirləri vətənin çətin günündə müdafiəyə qalxmış əsgərlərimiz üçün bir mənəvi dəstək olmuş, onları mübarizəyə daha da ruhlandırmışdır.

Dissertasiyanın II fəslinin "**Səməd Vurğunun epik yaradıcılığında milli ideyaların tərənnümünün yeni çalarları"** adlı II yarımfəslində S.Vurğunun poemalarındakı milli ideyalar araşdırılmışdır. Bu yarımfəsildə S.Vurğunun əfsanəvi və tarixi mövzuda yazılmış "Qız qayası", "Aslan qayası", "Bulaq əfsanəsi", "Ayın əfsanəsi", alleqorik səciyyə daşıyan "Yazla qışın deyişməsi", "Hürmüz və Əhrimən" poemaları tarixilik və millilik müstəvisində araşdırılmışdır.

Səməd Vurğunun poemalarına xas olan cəhət milliliyin ön plana çəkilməsidir. Şairin qələmə aldığı bu poemaların hər birində Azərbaycançılığın ətri duyulmaqdadır. Bu poemaların demək olar ki, hamısında konkret məkan vardır və bu məkan Azərbaycanın hər hansı bir dilbər guşələridir. Şairin "Qız qayası" poemasında hadisələr Qarabağda cərəyan edirdisə, "Aslan qayası" poemasında hadisələr Bakıda cərəyan edir. Eləcə də "Bulaq əfsanəsi" poemasında hadisələrin məkanı Şirvan şəhəri, "Ölən məhəbbət" poemasında isə Araz çayının sahilidir. Bütün bunlar bir daha şairin yurd sevgisindən xəbər verən nüansdır. Səməd Vurğun bu poemalarda hər hansı bir xəyali məkandan söhbət açmır, konkret olaraq Azərbaycanın hər hansı bir ərazisindən bəhs edir. Bu isə öz növbəsində Səməd Vurğunun vətəninə bağlılığından, xalq və millət sevgisindən qaynaqlanır. Səməd Vurğunun bu patriotizm coşqusu hər zaman onun yaradıcılığını işıqlandıran məşəl olmuş və şair üçün vətənpərvərlik hissi sənət kredosunu müəyyənləşdirən meyar olmuşdur.

Səməd Vurğunun ən məşhur poemalarından biri "Aygün" poemasıdır. "Aygün" poemasında şair bir sıra məsələləri əks etdirmişdir. Onun bu poemasında ailə fonunda milli-mənəvi dəyərlərin qorunması problemləri müxtəlif şəkildə canlandırılmışdır. Poemada öz arzu və idealları uğrunda mübarizə aparan insan obrazı təsvir olunmaqla yanaşı, keçdiyi çətin yol təsvir olunmuşdur. Burada təkcə ailə-məişət problemləri deyil, eyni zamanda milli dəyərlər fonunda bir sıra məsələlər də öz bədii əksini tapmışdır. S.Vurğun bu əsərdə sətiraltı mənada qadın azadlığı məsələsini də özünəməxsus şəkildə qabartmışdır. "Aygün" əsəri yazıldığı zaman heç də birmənalı qarşılanmamışdır. Bəzi oxucu və tənqidçilər əsəri lazımı qədər dəyərləndirməmişlər. Bəzi tənqidçilər cəmiyyətdə Əmirxan kimi insanların olmadığını, bununla da yalnış bir obrazın yaradıldığını söyləmişlər.

Səməd Vurğunun qələmə aldığı "Bakının dastanı" poemasında milli özünəməxsusluq qabarıq şəkildə təsvir olunmuşdur. Şair Bakı haqqında olan düşüncələrini dastan kimi səciyyələndirərək poemanı nəğmələr şəklində qələmə almışdır.

"Muğan" poemasında Səməd Vurğun Azərbaycanın malik olduğu əsrarəngiz gözəlliklərdən yan keçmir, yeri gəldikdə epik təsvirə geniş yer ayırır, "Bəsti" poemasında isə Azərbaycan qadının tərənnümünü önə çəkirdi. Şairin "Dar ağacı" və "Lökbatan" poemalarında tarixilik öndə olmaqla yanaşı, işğalçılıq siyasətinə təndiqi münasibət qabarıq şəkildə əks olunmuşdur. Səməd Vurğunun müəllifi olduğu "Macəra", "Muradxan", "Kənd səhəri", "Talıstan" poemalarında kənd həyatının epik təsviri geniş tərənnüm olunmaqla yanaşı, şair bir sıra mühüm məqamlara toxunmuşdur. Məlum olduğu kimi, Səməd Vurğunun əsərlərinin böyük bir qismində o zamankı ideologiyaya inam əsas yer tutur. Bu da şairin sovet məfkurəsinə inamından irəli gəlirdi. Səməd Vurğunun sovet ideologiyasına xidmət edən əsərləri sırasında "Komsomol poeması" mühüm yer tutur. Bu əsər yazıldığı gündən şairə böyük şöhrət qazandırmışdır. Əsər hissə-hissə yazılsa da sonradan bütöv halda işıq üzü görmüşdür. "Komsomol poeması" o zamanlar bir sıra tənqidçilər tərəfindən yüksək qiymətləndirilmişdir.

"Komsomol poeması"nın qəhrəmanları yeni yaranan cəmiyyət uğrunda mübarizə aparan gənclərdir. O gənclər ki, yeni cəmiyyətin onlara uğur gətirəcəyinə inanır və bunun uğrunda mübarizə aparır. "Komsomol poemasında" hadisələr XX əsrin 20-ci illərindən sonrakı dövrü əhatə edir. Yeni cəmiyyət uğrunda mübarizəni şair dramatik konflikt şəklində oxuculara müvəffəqiyyətlə təqdim etməyi bacarmışdır. Əsərin əsas qəhrəmanları olan Bəxtiyar, Cəlal, Murad, Şahsuvar, Mirpaşa, Gülzar, Humay və Gəray bəy obrazlarına müəllif fərdi şəkildə yanaşmağı bacarmışdır. Çünki bu obrazların çoxu şairin görüb tanıdığı konkret şəxslərdir. S.Vurğunun bu poemasına çağdaş düşüncə müstəvisində, yeni kontekstdə yanaşılsa yeni ideologiyaya inanıb, onun uğrunda mübarizə aparan gənclərin taleyini və eyni zamanda gəlmə ideologiyaya inanan gənclərin faciəsinin təsvirini görmək olar. "Komsomol poeması" ümumilikdə XX əsrin I yarısı Azərbaycan ictimai həyatının, məişətinin, əxlaq və sosial dəyərlərinin real mənzərəsini ifadə etmək baxımından əhəmiyyətli bir əsərdir.

Səməd Vurğun "Komsomol poeması"da hər hansı bir yeni cəmiyyət qurularkən mübarizə və qurbanların gərəkliyinin vacib olduğunu göstərmişdir. Əsər sovet dönəmində yazıldığına görə o zaman üçün çox

aktual bir əsər sayılmış və şair tarixdən gördüyü hadisələri, qəhrəmanları canlandırmağa müvəffəq olmuşdur.

Səməd Vurğunun sovet ideologiyasını tərənnüm edən əsərlərindən biri “Üsyan” poemasıdır. Bəxtiyar Vahabzadə bu əsəri “Komsomol poeması”nın bir qolu kimi səciyyələndirir. Əsər əvvəllər “Üsyan və Quran” adı ilə nəşr olunsa da sonralar adı dəyişdirilmiş və “Üsyan” olaraq qalmışdır.

Səməd Vurğunun “26-lar” poeması bu gün öz aktuallığını itirmiş əsərlər sırasındadır. Məlum hadisələrdən sonra xalqımız şaumyanların, osepyanların, kostandyanların, boryanların, avakyanların, əmiryanların mənfur siyasətinin iç üzünü görmüş oldu. Lakin danılmaz bir həqiqətdir ki, sovet şairləri bu komissarların Türkmənistanın Ağcaqum çölündə güllələnməsini az qala “əsrin faciəsi” kimi dəyərləndirirdilər. S.Vurğun da tarixi həqiqətlərin gizli saxlanıldığı bir dövrdə sovet ideologiyasına inanaraq “26-lar” poemasını qələmə almışdır. Maraqlı bir fakt da mövcuddur ki, istiqlal şairimiz Xəlil Rza Ulutürk və görkəmli şairimiz Mikayıl Müşfiq də ilk zamanlarda sovet ideologiyasına inanaraq “26-lar” adlı poema qələmə almışlar. Səməd Vurğun bu poemanı 1935-ci ildə, Xəlil Rza Ulutürk isə 1954-cü ildə qələmə almış və Xəlil Xəlilov imzası ilə çap etdirmişdir.

Səməd Vurğunun “Leninin kitabı” və “Zamanın bayraqdarı” poemalarında da sovet ideologiyasının təsiri açıq-aşkar duyulmaqdadır. Şairin “Ölüm kürsüsü” əsəri kommunist ideologiyasının carçılarından olan Dmitrova həsr olunmuşdur. Bu əsər sovet ideologiyasının faşizm üzərində mənəvi qələbəsi mövzusundadır və şair Dmitrovun simasında qələbəyə inamını əks etdirirdi. Səməd Vurğun 1949-cu ildə “Köhnə dostlar” adlı poema qələmə almışdır. Şairin “Köhnə dostlar” poemasının baş qəhrəmanı neftçi usta Murad olsa da, bu əsərdə “şəxsiyyətə pərəstiş” ideyası qabarıq şəkildə təsvir olunmuşdur. Bütün bunlar şairin o dövrdə mövcud olan ideologiyaya inamından irəli gəlirdi.

Səməd Vurğunun imperializm və müstəmləkəçilik siyasəti əleyhinə yazılmış əsərləri sırasında “Zəncinin arzuları” poeması mühüm yer tutur. Bəxtiyar Vahabzadə bu əsəri “Ölüm kürsüsü” əsərinin davamı hesab edirdi, çünki hər iki əsərdə mürtəce ideologiya, imperializm, müstəmləkçilik pislənilirdi.

Qüvvətli lirika ilə epik təxəyyülün ehtiva olunduğu Səməd Vurğun poeziyası bəşəri duyğuları əks etdirən bir poeziyadır. Bu əsərlərin bəziləri çağdaş dövrümüzlə səsləşməsə də buna baxmayaraq, sovet dönəmini “panorama” şəklində əks etdirmək baxımından çox əhəmiyyətlidir. Səməd

Vurğun yaradıcılığı hansı ideologiyaya xidmət etməsinə rəğmən, onun kökündə millilik, milli özünəməxsusluq, mənəvi dəyərlər dayanır.

Dissertasiyanın III fəsli **“Səməd Vurğun və Mehmet Akif Ersoy poeziyası sosial-siyasi, milli-mənəvi ideallar kontekstində”** adlanır. Bu fəslin “**Milli özünəməxsusluğun təzahür formaları”** adlı birinci fəslində hər iki şairin yaradıcılığı müqayisəli şəkildə araşdırılmış, milli özünəməxsusluğun təzahür şəkilləri müəyyənləşdirilmişdir.

Səməd Vurğun və Mehmet Akif Ersoy yaşadığı illərdə xalqının milli varlığını layiqincə qiymətləndirən, onun inkişafı naminə mübarizə aparan şəxsiyyətlər olmuşlar. Hər iki sənətkarın yaradıcılığına nəzər saldıqda onların əslində eyni qayəyə, eyni amala xidmət etdiyini görmək mümkündür. Doğrudur, hər iki ədibin yaşadığı siyasi-inzibati ərazi və ictimai-siyasi mühit fərqli olsa da, türk məfkurə və düşüncə anlamında hər ikisinin həyata baxışı, məqsəd və amalları eyni olmuşdur. Türk dünyasının bu böyük ədibləri hər zaman millətçilik mövqeyi nümayiş etdirmişlər. Ümumilikdə hər iki sənətkarın yaradıcılığı üçün milli ruh hakimdir. Humanizm və patriotizm duyğularından yoğrulmuş Səməd Vurğun və Mehmet Akif Ersoy poeziyası özlüyündə dəyərli bir mənbədir. Bu ədibləri düşündürən problemlər əslində bütün Şərq dünyası üçün xarakterikdir. Qadın hüquqsuzluğu, baş verən amansız müharibələr, vətən uğrunda vuruşan igidlərin vəsfi, xalqın mənəviyyatına zərbə vuran yad ünsürlərlə mübarizə hər bir vətənpərvər şairin, yazıçının yaradıcılığının “şah damarı” sayılır. Bu o deməkdir ki, Səməd Vurğun və Mehmet Akif Ersoy kimi vətənpərvər şairlər bu problemlərdən yan keçə bilməzdi. Lakin hər iki sənətkarın şahidi və iştirakçısı olduğu ictimai-siyasi proseslər tam fərqlidir. Səməd Vurğun sovet şairi olaraq, sosialist mövqedən yazıb yaradırdısa, müvafiq olaraq, Mehmet Akif Ersoy dağılan Osmanlı imperiyasının və yeni yaranan Türkiyə Cümhuriyyətinin ictimai-siyasi problematikasını işıqlandırmağa çalışırdı. Tarixdən bəllidir ki, həm Azərbaycan, həm də qardaş ölkə olan Türkiyə amansız müharibələrlə, qətliyamlarla, vuruşmalarla üz-üzə qalmışdır. Hər iki ölkə öz müstəqilliyini məşəqqətli və çətin mübarizə şəraitində əldə etmişdir. Vətəndaşı olduğu ölkəsinin, mənsub olduğu millətin keçmişi və bu gününü, mübarizələrlə dolu qəhrəmanlıq tarixini yaradıcılığında tərənnüm etmək, tarixi həqiqət müstəvisində dəyərləndirmək hər iki sənətkarı eyni baxış bucağında birləşdirir. Səməd Vurğun və Mehmet Akif Ersoy kimi dahi sənətkarların ənənəvi problemlərə yanaşmada eyni müstəvidə dayanmalarının kökü bilavasitə bunlara bağlanır.

Böyük şairimiz Səməd Vurğun İkinci Dünya müharibəsi illərində müharibəni qətiyyətlə pisləyən şeirlər qələmə almışdır. Eləcə də müharibəyə yola düşən əsgərlərimizi tərənnüm etmək də şairimizin bu illərdəki yaradıcılığının əsasını təşkil edir. Səməd Vurğun İkinci Dünya müharibəsi illərində qələmə aldığı şeirlərdə vətənin çətin günündə onun müdafiəsinə qalxan ayrı-ayrı igidlərimizi vəsf etməyi unutmamışdır. Bu baxımdan, şair Kamal Qasımov, Məzahir Abbasov, İsrafil Məmmədov kimi igid azərbaycanlı övladlarının şücaətindən bəhs edən şeirlər qələmə almışdır. Səməd Vurğun igidlərimizi tərənnüm etməkdən əsla yorulmamış, əksinə böyük bir fəxarətlə bu işi davam etdirmişdir. “Partizan Babaş” şeiri Babaş Dadaşova, “Bayraqdar” şeiri isə Hüseyn Əjdərova ithaf olunmuşdur. Bu şeirlərin də hər birində qəhrəmanların hünəri təqdir olunur, onların igidlikləri yüksək qiymətləndirilir.

Mehmet Akif Ersoy poeziyasında Türkiyə tarixində baş verən başqa müharibə və qətliyamlar pislənilirdi. O dövrdə baş verən müharibələr şairi düşündürən məsələlər sırasında olmuşdur. Bu mövzuda yazılmış Mehmet Akif Ersoyun ən məşhur şeirlərindən biri “Çanaqqala şəhidlərinə” şeiridir. Başdan-başa vətənpərəvərlik və millətpərəstlik duyğuları ilə rövnəqlənən bu şeirdə şair alovlu bir natiq kimi çıxış edir. Bu şeir Türkiyə tarixində silinməz iz buraxan məşhur Çanaqqala zəfərinə həsr olunmuşdur. Tarixdən bəllidir ki, türk millətinin yurd sevgisi, iradəsi və qətiyyəti sayəsində Çanaqqala döyüşündə qələbə qazanılmışdır. Şanlı türk ordusu bütün çətinliklərə baxmayaraq, 1915-ci ildə baş vermiş qanlı müharibə nəticəsində qələbə əldə etmişdi. Osmanlı ordusu təchizat və say baxımından az olmasına baxmayaraq, bütün hücumları dəf etmiş və zəfər qazanmışdı. Türk igidlərinin göstərdiyi şücaət və hünəri tərənnüm etməklə yanaşı, şairin bu şeirində müharibəni pisləyən məqamlar öz əksini tapmışdır. Mehmet Akif Ersoyun bu şeirində döyüşün ağrı və acılarını aydın şəkildə duymaq mümkündür.

Düşmən ordusunun güclü ordu və silahla təchiz olunmasına baxmayaraq, heç nədən çəkinməyən igid türk əsgərlərinin dönməzliyini, məğrurluğunu və mərdliyini xüsusi vurğulayan Mehmet Akif Ersoy heç bir vəchlə geri çəkilmədən son damla qanına qədər vuruşan türk igidlərinin mübarizliyini alqışlayır. Şairi yeganə təsəlli edən məqam məhz bu igid əsgərlərin mətanətidir. Heç bir möcüzənin onların bu qəhrəmanlığı ilə müqayisə oluna bilməyəcəyini bildirən şair bu igidlərin vətən uğrunda şəhid olmasını da şərəfli hesab edir. Sonda vətən uğrunda canlarını qurban verən şəhidlərə müraciətlə Mehmet Akif yazır:

*Sen ki, asara gömülsen taşacaksın… Heyhat,*

*Sana gelmez bu ufuklar, seni almaz bu cihan...*
*Ey şehid oğlu şehid, isteme benden makber,*
*Sana ağuşunu açmış duruyor Peygamber.*[1]

Bütün sülhpərvər insanlar kimi müharibə əleyhinə olan Mehmet Akif Ersoy "Çanaqqala şəhidlərinə" şeirində müharibəni qətiyyətlə pisləmişdir.

Səməd Vurğunun "Adsız qəhrəman", "Mənə belə söyləyirlər", "Qəhrəmanın ölümü", "İslam" şeirləri vətən uğrunda canından keçən qəhrəmanlara ithaf olunmuşdur. "Adsız qəhrəman" şeirində şair vətən uğrunda gedən döyüşlərdə canından keçən igidlərin ümumiləşmiş obrazını canlandırmışdır. Şair adsız qəhrəmanlara müraciətlə yazır:

*Siz ey, Odlar ölkəsinin adsız ölən ərənləri!*
*İnsan oğlu bu aləmə gözə açdığı gündən bəri*
*Azadlığın məşəlinə qurban olmuş pərvanə tək,*
*Lakin ellər baş endirir qəhrəmanlar güzarına!*
*Adsız ölən igidlərin o pərişan məzarına*
*Çiçək səpir qucaq-qucaq, gül dağıdır ətək-ətək.*
*Siz ey, vətən torpağının vaxtsız ölən övladları!*
*Ey ağ saçlı bir millətin baş şöhrəti, dünya varı!..*[2]

Tarixdən bəlli olduğu kimi Birinci Dünya müharibəsinin Osmanlı dövləti üçün ağır nəticələri olmuşdur. Ölkə iqtisadiyyatı tənəzzülə uğramış, Türkiyə ərazisinin "Antanta" dövlətləri tərəfindən işğalı labüd olmuşdu. "Antanta" birliyinə daxil olan dövlətlər Türkiyəni dövlət kimi tamamilə öz aralarında bölüşdürüb xəritədən silmək niyyətində idilər. Bu dövlətlərdən İngiltərə, Fransa, İtaliya və Yunanıstan öz işğalçı niyyətlərini həyata keçirməyi panlaşdırırdılar. İzmir ərazisinin Yunanıstana verilməsi barədə qərar qəbul edilmiş, bundan başqa ingilis qoşunları Kilikiya ərazisini, fransızlar isə Şərqi Trakya və Qara dəniz boğazlarına yaxın əraziləri işğal etmişdilər. Bir sözlə, Mustafa Kamal Atatürk tərəfindən yeni cümhuriyyət qurulana qədər Türkiyənin hərbi-siyasi və iqtisadi vəziyyəti acınacaqlı idi. Həmin dövrdə yadelli işğalçılara qarşı mübarizə aparan igid vətən övladlarını ilhamlandırmaq, ruhlandırmaq üçün Ersoy "Cəng şərqisi" kimi şeir qələmə almışdır. Mehmet Akif Ersoy bu şeirində siyasi motivlərə də toxunur. Tarixdən məlum olduğu kimi, Osmanlı dövləti 1912-1913-cü illərdə dörd dövlətlə müharibə etmişdir. Tarixdə "Balkan müharibələri" adlanan bu savaşa Mehmet Akif Ersoy kimi vətənpərvər bir şair biganə qala bilməzdi.Mehmet Akif Ersoyun vətənpərvərlik duyğularını əks etdirən

---

[1] Qədim dövrdən bu günə qədər Türkiyə türk ədəbiyyatı. Tarix-Adlar-Mətnlər. Ankara: T.C. Ankara Valiliği Ostim Çıraklık Eğitimi Merkezi Müdürlüğü Matbaası, 1999, s. 309
[2] Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, s. 110

“Cəng şərqisi” şeirində müəllif türk əsgərlərini düşmənlərlə mübarizə aparmağa səsləyir. Hər misrası ilə vətən uğrunda müdafiəyə səslənən şair əsgərləri mətin və dözümlü olmağa çağırır. İgid türk övladlarını bütün maneələri dəf etməyə səsləyən şair bu şeirində türk əsgərinin şücaətindən də bəhs etmişdir.

Səməd Vurğunun “Sovqat”, “Qızxanımın hünəri”, “Uşaq bağçası”, “Tarla nəğməsi”, “İlham pərisi”, “Göyərçin” və s. şeirləri də müharibə illərində qələmə alınmışdır. Bu şeirlərdə insanlar vətənpərvərliyə səslənir, qanlı-qadalı illərdə vətən uğrunda əlindən gələni əsirgəməyən insanlar təqdir olunurdu.

“Ordunun duası” şeirində M.A.Ersoyun “ənənəvi” vətən sevgisi tərənnüm olunmuşdur. S.Vurğunun “Vətən ordusu” şeirində də M.A.Ersoyun “Ordunun duası” şeirindəki ruh hakimdir. Hər iki şeirdə müəlliflər vətən uğrunda mübarizəyə hazır olan əsgərləri ruhlandırır, onları əzmkarlığa səsləyir.

M.A.Ersoy və S.Vurğun öz yaradıcılığında müharibəni qətiyyətlə pisləyən mövqedən çıxış edərək, mübarizə aparan igidləri təqdir edən əsərlər qələmə almışlar. Türk və müsəlman təfəkküründən qaynaqlanan M.A.Ersoyun və S.Vurğunun müharibə ilə bağlı düşüncələri eyniyyət təşkil edir. Hər iki şair müharibəni qətiyyətlə pisləməklə bərabər bu mövzuda yazılmış şeirlərində əzmkarlıq nümayiş etdirərək, mübarizə aparan igidləri daha da ruhlandırır və qələbənin onların tərəfində olacağına inam hissi yaradır. Ümumtürk kontekstindən bəhrələnən vətənpərvərlik, yurd sevgisi, torpaq uğrunda mübarizə əzmi, qəhrəmanlıq öz başlanğıcını hələ qədim zamanlardan – qədim türk qəhrəmanlıq epos və dastanlarından, ümumtürk yazılı abidələrindən götürür və bu baxımdan hər iki ədibin vətən sevgisinin eyni kökdən qidalandığını söyləmək mümkündür.

Məlum olduğu kimi, həm Səməd Vurğun, həm də Mehmet Akif Ersoy öz ölkələrinin himnlərinin söz yazarı olmuşlar. Türkiyə Cümhuriyyətinin himninin sözlərinin müəllifi Mehmet Akif Ersoy, 1944-1978-ci illərdə mövcud olmuş Azərbaycan SSR himninin sözlərinin müəllifi isə Səməd Vurğun (Süleyman Rüstəmlə birlikdə) olmuşdur. Səməd Vurğunun sovet ideologiyasına olan inamı himnin sözlərində nəzərə çarpır. 1978-ci ildən etibarən isə şair Hüseyn Arif şeirin müəyyən misralarını ixtisar edərək, sosializm, sovet ideologiyası və himnin digər misralarında öz əksini tapan Stalinlə bağlı olan hissələri dəyişdirmişdir.

Mehmet Akif Ersoy da öz növbəsində Türkiyə Cümhuriyyətinin himninin daha dəqiq desək, “İstiqlal marşı”nın müəllifidir. Onun qələmə aldığı “İstiqlal marşı” şeiri ən məşhur şeirlərindən biridir. Azadlığın hər

zaman Türkiyənin tərəfində olacağına inanan şair bu şeirində bir vətən fədaisi kimi çıxış edir.

Dissertasiyanın III fəslinin II yarımfəsli "**Sosial-siyasi gerçəkliyin poetik mənzərəsi və ifadə üsulları"** adlanır. Bu fəsildə siyasi və sosial gerçəkliyin ifadə şəkillərinə aydınlıq gətirilmiş, M.A.Ersoy və S.Vurğun poeziyası müqayisəli şəkildə araşdırılmışdır.

XX əsr həm Azərbaycan, həm də Türkiyə tarixi üçün bir sıra tarixi, ictimai-siyasi proseslərlə yadda qalmışdır. Azərbaycanda 1918-ci ildə ilk olaraq Azərbaycan Demokratik Cümhuriyyəti qurulmuşdu, təəssüf ki, ömrü az oldu və Azərbaycanda Sovet hakimiyyəti quruldu. Eləcə də qardaş ölkə olan Türkiyə tarixində də bir sıra hadisələr baş verdi, bir imperiya süquta uğrayaraq, yeni bir cümhuriyyət yaradıldı. Bu tarixi proseslər, əlbəttə ki, çətin və gərgin mübarizə şəraitində baş vermişdi. Birinci Dünya müharibəsinin başlanması ilə Osmanlı imperiyası daha gərgin bir dövrünü yaşadı. Baş verən hücumların qarşısını almaq üçün türklər milli-azadlıq hərəkatına qoşuldular. Bu milli-azadlıq hərəkatına türkün böyük öndəri Mustafa Kamal Atatürk rəhbərlik edirdi. Türkiyə müstəqil cümhuriyyət olanadək bir sıra müharibələrin savaş meydanına çevrilmişdi. 1923-cü il oktyabrın 29-da Türkiyə Böyük Millət Məclisi Türkiyə Cümhuriyyəti yarandığını elan etdi. Mustafa Kamal Atatürk isə bu cümhuriyyətin ilk prezidenti seçildi. Mehmet Akif Ersoyun müəllifi olduğu "İstiqlal marşı" şeiri isə bu Cümhuriyyətin rəsmi himni olaraq qəbul edildi.

Böyük şairimiz Səməd Vurğun yaradıcılığının mühüm bir qismi sovet dövrünə təsadüf edir. Sovet dövrünün təlqin elədiyi ideologiyaya inanan şairimizin əsərlərinin bir qismində kommunist yönümlü, kollektiv təsərrüfata rəğbət, yeni yaranan sovet cəmiyyəti uğrunda mübarizə və s. leytmotivlər öz bədii əksini tapmışdır. Buna görə biz şairimizi nə qınaya, nə də ittiham edə bilərik. Hər bir yaradıcı şəxsiyyət öz dövrünün övladıdır və quruluşun təlqin elədiyi şəkildə yazmağa məcburdur. Doğrudur, bu gün bəzi əsərlər dövrümüzlə səsləşmir, zamanla ayaqlaşmır, çünki sovetin "iç üzünü", "mənfur siyasətini" zamanla görmüş olduq, ancaq bütün bu əsərlər Səməd Vurğun kimi bir dühanın qələminin bədii məhsuludur. Bizlər istər-istəməz, bu əsərləri şairin yaradıcılıq külliyyatından çıxarıb kənarlaşdıra bilmərik. O dövrdə şair məhz sovet ideologiyasını özünə rəhbər tutmuşdu, kim bilir, bəlkə də Səməd Vurğun xalqımızın müstəqillik qazanmaq uğrunda etdiyi mücadilənin şahidi olsaydı, sovetin xalqımızın başına açdığı müsibətləri görmüş olsaydı, yaradıcılıq istiqamətini dəyişmiş olardı. Sovet ideologiyasına olan aludəçilik hətta şairin bir sıra qələm dostları ilə arasında narazılığa səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, şairin

sovet ideologiyasına xidmət edən əsərləri o illərin ideologiyasına inamından irəli gəlirdi.

Həm Səməd Vurğun, həm də Mehmet Akif Ersoy öz yaradıcılığında qadın hüquqsuzluğuna qarşı tənqidi münasibət bəsləmişlər. Hər iki sənətkar qadının cəmiyyətdəki mövqeyini yüksək qiymətləndirir və onların nüfuzunu təqdir edirdi. Şairlərimiz üçün qadın-ana məfhumu eyniyyət təşkil edir və hər ikisi hörmətə layiq şəxsiyyət kimi təqdir olunur.

Böyük şairimiz Səməd Vurğunun əsərləri zamanın tələbinə uyğun olaraq yazılmışdır. Şair öz əsərlərində milliliyə və xəlqiliyə böyük üstünlük verirdi. Bəzi tənqidçilər Səməd Vurğunun əsərlərində dinin əleyhinə olan məqamlara rast gəlindiyini bildirməklə şairin İslam dini əleyhinə olduğunu göstərməyə çalışmışlar. Lakin bu, əslində belə deyildi. İslam dininə sitayiş edən böyük şairimiz ola bilməzdi ki, dinin əleyhinə olsun. Sadəcə sovet dövrünün tələbi ilə şair bəzi məqamları üstüörtülü, dolayı yolla təqdim etməyə çalışmışdır. Məsələn, şair "Komsomol poeması"nda məscidə it bağlanması əhvalatını təsvir etməklə insanların dini inanclarına xələl gətirənləri əslində tənqid etmişdir. Mirpaşanın məscidə it bağlamasını pisləyən Bəxtiyar yoldaşını bu yalnış addımı atdığı üçün danlayır. Xalqın əsrlərdən bəri olan inancına xələl gətirməyi Bəxtiyar əslində düzgün hesab etmir.

Səməd Vurğun həmişə Allaha inanan, İslama sitayiş edən bir şəxsiyyət olmuşdur. Lakin şair dövr və zamanın, eləcə də, quruluşun tələbinə uyğun olaraq, öz hisslərini sətiraltı mənada büruzə verməyə çalışmışdır.

Səməd Vurğunun poeziyasının mühüm tərkib hissəsini isə onun cənub mövzusunda yazdığı əsərləri təşkil edir. Səməd Vurğunun güney mövzusunda yazdığı əsərlər sırasında "Körpünün həsrəti", "20 bahar", "Təbriz gözəlinə", "Yandırılan kitablar" şeirləri mühüm yer tutur.

Həm Səməd Vurğun, həm də Mehmet Akif Ersoy xalqın milli-mənəvi dəyərlərini yaşadanlar sırasında olmuşlar. Hər iki ədib yaşadığı illər boyunca millətini sevən bir ziyalı kimi xalqını tərənnüm etmiş və vətənpərvərlik mövqeyi nümayiş etdirmişlər.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat işindən əldə olunan nəticə və qənaətlər öz əksini tapmışdır. Burada M.A.Ersoy və S.Vurğun peoziyasındakı milli-mənəvi ideal məsələləri ümumiləşdirilmiş şəkildə təsvir edilmişdir:

- Hər iki şair öz yaradıcılığında bir sıra mühüm və o dövr üçün aktual olan məsələlərə toxunmuşdur.
- Həm Mehmet Akif Ersoyun, həm də Səməd Vurğunun yaradıcılığında mənəviyyat məsələləri olduqca güclüdür.

- Görkəmli türk şairi Mehmet Akif Ersoy hər zaman millətinin qayğısına qalan, dövlətin, eləcə də cəmiyyətin problemlərini öz bədii yaradıcılığında əks etdirməyə çalışan və bütün bunlardan qurtuluş yolu axtaran dahi bir şəxsiyyətdir.

- Qüvvətli bir mühafizəkar olan Mehmet Akif Ersoyun mühafizəkarlığı bir çox sahələrdə – milli-mənəvi dəyərlərdə, əxlaqda, dində, siyasətdə və s. sahələrdə özünü büruzə verir.

- Görkəmli şairimiz Səməd Vurğun folklor ənənələrini yaşadan insanlar sırasında olmuşdur. Şair Azərbaycan foklorundan bəhrələnməklə bir-birindən dəyərli nümunələr qələmə almışdır.

- Səməd Vurğun lirik yaradıcılığında olduğu kimi, epik yaradıcılığında da qüdrətli bir novatordur, milli-mənəvi dəyərlər carçısıdır.

- Şimallı-cənublu Azərbaycanımız ilə hər zaman fəxr edən Səməd Vurğun vətənpərvər bir insan olaraq, cənublu soydaşlarımızın aqibətini, taleyini düşünmüş, eləcə də Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizin bir sıra problemlərini qabartmağa çalışmışdır.

- Böyük sənətkarlar – Səməd Vurğun və Mehmet Akif Ersoyun yaşadığı mühit və yaradıcılıq mühiti fərqli olmasına baxmayaraq, onları düşündürən problem, ideal eyni olmuşdur.

- Milli-mənəvi dəyərlərin qorunması, yadelli işğalçılarla mübarizə, millətin qeydinə qalmaq, əsgərləri cəbhəyə ruhlandıran şeirlər qələmə almaq, qadının cəmiyyətdəki nüfuzunun yüksəldilməsinə çalışmaq, öz doğma dilində danışmaq, əcnəbi dəyərlərə üstünlük verməmək, bir sözlə, milliliyi və özünəməxsusluğu yaşadıb gələcək nəsillərə ötürmək hər iki sənətkarın başlıca yaradıcılıq konsepsiyası olmuşdur.

- Hər zaman milliliyə üstünlük verən Mehmet Akif Ersoy və Səməd Vurğun mənəviyyatımıza xələl gətirəcək amillərlə mübarizə aparmışlar.

**Dissertasiyanın əsas elmi-nəzəri müddəaları aşağıdakı kitab, məqalələr və tezislərdə öz əksini tapmışdır:**

1. Milli istiqlal şairi Mehmet Akif Ersoy. Elmi redaktor və ön sözün müəllifi: professor Elman Quliyev. Bakı: Elm və təhsil, 2014, 164 s.

2. Mehmet Akif Ersoy yaradıcılığında zülm və istibdadın tənqidi məsələləri / Abbas Zamanovun 100 illik yubileyinə həsr olunmuş “Müasir Azərbaycan filologiyası: axtarışlar, problemlər, perspektivlər” respublika elmi konfransının materialları. Bakı, 14-15 noyabr 2011. Bakı Dövlət Universiteti. Bakı: 2011, s.331-336

3. Vətənpərvər şair Mehmet Akif Ersoyun ictimai-siyasi fəaliyyəti / Mübariz Əlizadənin 100 illik yubileyinə həsr olunmuş “Şərq filologiyasının aktual problemləri” respublika elmi konfransının materialları. Bakı Dövlət Universiteti. Bakı: 2011, s.300-303

4. Mehmet Akif Ersoyun “İstiqlal marşı” şeirində vətən təəssübünün bədii inikası / Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim heyətinin X respublika elmi konfransının materialları. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Bakı: 2012, s. 231-233

5. İslam dini Mehmet Akif Ersoy yaradıcılığının başlıca idealı kimi / Vasim Məmmədəliyevin 70 illik yubileyinə həsr olunmuş “Şərqşünaslığın aktual problemləri” respublika elmi konfransının materialları. Bakı, 14-15 noyabr 2012. Bakı Dövlət Universiteti. Bakı: 2012, s.396-397

6. Борьба за родину как национально-эстетический идеал творчества Самеда Вургуна и Мехмет Акиф Эрсоя // Ученые записки. Филология. Социальные коммуникации. Таврического Национального Университета им. В.И.Вернадского.Украина, Симферополь: 2012. том 25 (64). №2 ч.2., с. 143-148

7. Səməd Vurğun poeziyasında Azərbaycançılıq milli vüqar hisslərinin bədii tərənnümü kontekstində // Pedaqoji Universitet Xəbərləri. Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər seriyası. Bakı: 2012, №4, s. 212-216

8. Səməd Vurğunun lirikasında milli qəhrəmanların mübarizliyinin bədii tərənnümü / Gənc alimlərin respublika elmi konfransının materialları. Masallı, 5-7 mart 2013. Bakı: 2013, s. 81-84

9. Səməd Vurğun poeziyasında görkəmli azərbaycanlı şəxsiyyətlərin vəsfinin bədii çalarları // “Gənc Alimlərin Əsərləri” jurnalı. Bakı: 2013, s. 331-337

10. The notable patriotic poets of the Turkish world : Samad Vurgun and Mehmet Akif Ersoy / Abstracts collection on new challenges in the European area: International Baku Forum of Young Scientists dedicated: to the 90-th anniversary of national leader Haydar Aliyev. Baku: 2013 p. 494-496

11. Milli təəsübkeşlik Mehmet Akif Ersoy poeziyasının əsas istiqaməti kimi / “VII Beynəlxalq Türk Mədəniyyəti, incəsənəti və Mədəni İrsin Mühafizəsi Simpoziumu” Beynəlxalq elmi konfransının materialları. Bakı, 26-29 may 2013, Bakı: 2013, s.663-669

12. Mehmet Akif və Səməd Vurğunun epik poeziyasında ailə dəyərlərinin türk təfəkkür kontekstində bədii dərki / Doktorantların və gənc

tədqiqatçıların XVII respublika elmi konfransının materialları. Bakı: 2013, I cild, s. 303-304

13.Aşıq sənəti Səməd Vurğun poeziyasının milli koloriti kimi / Aşıq Şəmşirin anadan olmasının 120 illiyinə həsr olunmuş “Aşıq sənətinin tarixi inkişaf yolları və aşıq Şəmşir mərhələsi” Beynəlxalq elmi konfransının materialları. Bakı, 5-6 dekabr 2013, Bakı: 2013, s. 232-248

14.Вопросы нравственности и морали в поэме Самеда Вургуна «Айгюнь» // Гилея науковый вестник. Национальный Педагогический Ууниверситет имени М.П.Драгоманова Украинская Академия Наук. Украина, Киев: 2013. Выпуск 78 (№ 11). с.233-236

15.Mehmet Akif Ersoyun “Asım” poemasında milli ideologiya problemi // “Gənc Alimlərin Əsərləri” jurnalı. Bakı: 2013, s.221-228

16.Millilik Səməd Vurğun yaradıcılığının əsas göstəricisi kimi / Doktorantların və gənc tədqiqatçıların XVIII respublika elmi konfransının materialları. Bakı: 2013, II cild, s. 66-69

17.Səməd Vurğunun poemalarında tarixilik və milliliyin təzahür formaları // Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, dil və ədəbiyyat institutu, Naxçıvan: 2014, cild 4, №1, s. 85-91

18.Milli özünəməxsusluğun bədii inikası // “Azərbaycan” jurnalı. Bakı: 2014, №6, s.186-190

19.Səməd Vurğunun epik yaradıcılığında mənəvi dəyərlərin milli müstəvidə bədii əksi // Axtarışlar. AMEA Naxçıvan bölməsi, İncəsənət, dil və ədəbiyyat institutu, Naxçıvan: 2014, cild 4, №4, s. 107-112

20.Samad Vurgun’s south Azerbaijan langour // Baku Forum of Young Scientists. Collection abstracts. Baku: 2014, s. 56-57

21.Gaspiralı İsmayıl beyin “dilde, fikirde, işde birlik” ideolojisinin Mehmet Akif Ersoy eserlerine etkisi / Uluslararası Gaspiralı İsmayil beyin ölümünün 100. yılında dilde, fikirde, işte neredeyiz? Sempozyumunun bildiri özetleri. Türkiye-İstanbul, 15-17 ekim 2014 ekim 2014. İstanbul: 2014, s. 47-48

22.Mehmet Akif Ersoyun yaradıcılığında sosial problemlərin bədii əksi / “I Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu” bildiriler kitabı. Türkiye-Niğde, 18-21 mart 2014. Niğde: 2014, s. 1601-1612

23.Mehmet Akif Ersoyun millet sevgisi ve vatan namına mücadelesi / “II Uluslararası Türk sanatları, tarihi ve folkloru kongresi sanat etkinlikleri sempozyumu” bildiriler kitabı. Bosniya: 2015, s. 473-478

24.Mehmet Akif Ersoy poeziyasında milli mühafizəkarlığın bədii təcəssümü // Filologiya məsələləri. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı: 2015, №4, s. 387-394

25.Tekirdağın Çanakkale savaşlarında önemi ve bu zaferin Mehmet Akif Ersoy eserlerinde yansıması / "100-cü yıl anısına Çanakkale savaşlarında Tekirdağ sempozyumu" bildiriler kitabı. Türkiye-Tekirdağ, 23-24 nisan 2015. Tekirdağ: 2015, s. 75-86

26.Mehmet Akif Ersoy eserlerinin çocuk ve genç kahramanlarının manevi dünyası / "II Uluslararası Çocuk ve Gençlik edebiyatı Sempozyumu" bildiriler kitabı. Türkiye-İstanbul, 23-24 ekim 2015. İstanbul: 2015. s. 415-423

27.Mehmet Akif Ersoyun vətənpərvərliyi milli ideal kontekstində / "VIII Beynəlxalq Türk Mədəniyyəti, incəsənəti və Mədəni İrsin Mühafizəsi Simpoziumu". Türkiye-Konya, 15-17 may 2014. Konya: 2016, s.821-827

28.Səməd Vurğun və Mehmet Akif Ersoyun yaradıcılığında milli dəyərlərin yaşadılması məsələləri / "XXI əsr pəncərəsindən mədəniyyət və kimlik" Beynəlxalq konfransının materialları. Bakı, 26-28 may 2015. Bakı: 2016. s. 223-230

29. Səməd Vurğun poeziyasında İslam dini ideologiyası ilə bağlı sətiraltı məqamlar / Integration Processes Of The World In The 21 st Century. International Youth Forum. Book of abstracts. Ganja, 10-14 october 2016. Bakı: 2016. s. 364-365

30. Mehmet Akif Ersoyun yaradıcılığında Şərq və Qərb qarşıdurmasının təzahür formaları / Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar mövzusunda beynəlxalq konfrans. Bakı, 14-15 noyabr 2016. II hissə. Bakı: 2016 s.358-359

31. Ideology issues in Samad Vurgun's poems // Криворожский Государственный Педагогический Университет. Литература мира: поэтика, ментальность и духовност. Украина, Кривой рог: 2017. Выпуск 8, c.140-146

32. Səməd Vurğun və Mehmet Akif Ersoy poeziyasının mövzu rəngarəngliyi / AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Səməd Vurğun ev-muzeyinin birgə keçirdikləri "Səməd Vurğun və Türk dünyası" adlı elmi-praktiki konfransın materialları. Bakı, 27 aprel 2017. Bakı: 2017, s.80-89

33.Mehmet Akif Ersoy istiqlal şairi kimi / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransının materialları. Bakı, 05-06 may 2017. Bakı: 2016, s. 873-874

*Лейла Фаик кызы Керимова*

**Национальные и духовные идеалы в поэзии М.А.Эрсоя и С.Вургуна**

**Резюме**

Среди выдающихся личностей патриотической поэзии отличаются выдающиеся поэты тюркского мира Мехмет Акиф Эрсоя и Самед Вургуна. В своем творчестве оба поэта художественно-поэтическим путем отражают приверженность турецкой нации и думают о народе, а национальные интересы выше всего остального. Мехмет Акиф Ерсой и Самед Вургун в своих работах все время возрождали во имя народа и неустанно боролись за благо своего народа. Оба автора критиковали войну в своих произведениях и отражали вопросы мира в которых люди должны жить.

Диссертация состоит из введения, трех глав, трех под глав, результата и списока использованной литературы.

Первая глава диссертации называется «Влияние и место Мехмет Акиф Эрсоя в турецкой литературе». Здесь был рассмотрен жизненный путь Мехмет Акиф Эрсоя и вовлечены в анализ работы национально-патриотической позиции поэта. Кроме того, были изучены национально-нравственные идеологии в стихотворных рассказах и образы и в этих рассказах произведений поэта называемой «Сафахат».

Вторая глава диссертации называется «Понимание национально-исторического контекста в национально-патриотической позиции поэзии Самеда Вургуна». В этой главе были проанализированы как лирические так и эпические произведения С.Вургуна. Здесь рассмотрены вопросы национально-культурного идеала почти в 30 поэм Самеда Вургуна, были исследованы непокрытые важные моменты лирики поэта, а самое главное раскрыты суть идеологии «Азербайджанство».

Третья глава диссертации называется «Национальные и нравственные идеалы в социально-политическом контексте поэзии Самеда Вургуна и Мехмет Акиф Эрсоя». Эта глава в сравнительной форме. Здесь сравнительно исследуются социальные и политические проблемы и изучают способы поэтического выражения национальной идентичности в поэзии обеих поэтов.

В конце диссертации представлены результаты и список использованной литературы.

*Leyla Faik gizi Karimova*

**National and moral ideals in poetry of M.A.Ersoy and S.Vurgun**

**Summary**

Prominent poets of Turkic world, Mehmet Akif Ersoy and Samed Vurgun are distinguished by their patriotic poetry among great people. During their creativity, both poets thought about their nation and people, held national interest of the people above everything else and reflected their commitment to Turkish nation in artistic and poetic way. Mehmet Akif Ersoy and Samed Vurgun revived people's concerns in their works and fought tirelessly for their people. Both poets have written books criticizing the wars, reflecting the desires of people to live in peace. Dissertation consists of introduction, three chapters, three subchapters and a list of used literature.

The first chapter of dissertation is called "Role and influence of Mehmet Akif Ersoy in Turkish literature". In this chapters, the way of life of Mehmet Akif Ersoy is looked over and the works describing his national patriotism are analyzed. Also, verse stories that serve the national-moral ideology and characters of these stories in the artistic collection called "Safahat" have been investigated.

The second chapter of dissertation is called "Understanding of patriotic stance in the national-historic context in the poetry of Samed Vurgun". In this chapter, both lyrical and epic creativity of Samed Vurgun have been analyzed. Nearly 30 poems of Samed Vurgun and issues of national-cultural ideal in those poems have been investigated and most importantly the ideology of "Azerbaijanism" has been explained.

The third chapter of dissertation is called "The poetry of Samed Vurgun and Mehmet Akif Ersoy in the context of social-political, national-moral ideals". This chapter is comparative. Social-political problems were investigated, ways of poetic expression of national identity issues were researched in poetry of both Poets.

The end of dissertation contains the result and a list of used literature.

Kağız formatı: 60/84 16/1
Sayı: 100 nüsxə

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

*На правах рукописи*

**ЛЕЙЛА ФАИК кызы КЕРИМОВА**

# НАЦИОНАЛНЫЕ И ДУХОВНЫЕ ИДЕАЛЫ В ПОЭЗИИ М.А.ЭРСОЯ И С.ВУРГУНА

5716.01 – Азербайджанская литература
5717.01 – Литература тюркских народов

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание научной степени
доктора философии по филологии

**Б А К У – 2 0 1 7**